Faxralı, Rəşid. Azərbaycan ordusunun zəfər yürüşü / R. Faxralı // İki sahil. - 2020. - 25 noyabr. - № 210. - S. 28.

Bu ilin payızı Azərbaycan Ordusunun zəfərlərinə görə ruhumuzun fəsili, təbiətin bundan sonrakı min illəri üçün beşinci fəsili oldu...

Ermənistanın Azərbaycandan ərazi iddiası Azərbaycana qarşı elan edilmədən başlayan müharibəyə səbəb oldu. Sabiq SSRİ Silahlı Qüvvələrinin Xankəndidə yerləşən 366-cı alayının fəal iştirakı ilə Ermənistan Azərbaycanın torpaqlarını işğal etdi, neçə-neçə yaşayış məntəqəsində faciə, Xocalı şəhərində soyqırım törətdi. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar Azərbaycanın haqlı tələblərinə niyəsə ciddi münasibət bildirmədi. BMT kimi nüfuzlu beynəlxalq təşkilatın qəbul etdiyi qərarları yerinə yetirməyən Ermənistana qarşı heç bir sanksiya tətbiq edilmədi. Azərbaycan dövlətinin Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyi Ermənistanın imitasiyalarla danışıqlardan yayınması, status-kvonu saxlama cəhdləri səbəbindən mümkün olmurdu. Dünyanın aparıcı dövlətləri də, ATƏT-in Minsk qrupunun həmsədri olan dövlətlər də bu münaqişənin ancaq sülh yolu ilə həll edilməsini vacib sayırdı...

Münaqişə 28 ildə həll edilmədi...

Ermənistan bu illər ərzində də atəşkəsə əməl etmir, irimiqyaslı təxribatlar törətmək istəyir, işğal etdiyi ərazilərdən Azərbaycanın ərazilərini müntəzəm atəşə tuturdu. Azərbaycanın ordu hissələri düşmənin atəş mənbələrini susdururdu. 2015-ci ilin avqustunda, 2016-cı ilin aprelində döyüşlər oldu. Azərbaycan Ordusu mühüm qələbələr qazandı, Azərbaycan Respublikasının Prezidenti bu qələbələri yüksək dəyərləndirdi. 2020-ci ilin iyulunda Ermənistan dövlət sərhədini pozmağa cəhd etdi. Azərbaycan Ordusunun hissələri hücumun qarşısını qətiyyətlə aldı, ağır itkilərə məruz qalan düşmən geri çəkildi...

Düşmən gərək biləydi ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Bunları nəzərə almadığına görə bu ilin sentyabr ayının 27-də də müxtəlif təyinatlı silahlardan, artilleriya qurğularından istifadə etməklə təmas xəttini keçməyə, təxribatlar törətməyə cəhd göstərdi. Ordu hissələrimiz bu hücumun da qarşısını qətiyyətlə aldı, Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatına başladı.

Sentyabrın 27-nə kimi əsgərlərimiz mahiyyəti torpaqlarımızın işğaldan azad edilməsi olan döyüş növbətçiliyini döyüş əzmiylə, döyüş əzmini tamamlayan qələbə ruhuyla aparırdı. Bu niyyət Vətən müharibəsində gerçəkləşdi...

Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı torpaqlarımızı işğaldan azad edəcək döyüşlər Vətən müharibəsi kimi davam etdirildi. Azərbaycan Ordusu qətiyyətiylə, döyüş və mənəvi-psixoloji hazırlığıyla düşmənin illərlə möhkəmləndirdiyi müdafiə qurğularını darmadağın etdi. Bu, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini beynəlxalq təşkilatların həll edə bilmədiyi, bəlkə də biganəliklə, qərəzliklə həll etmək istəmədiyi münaqişənin qətiyyətli həlli idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Silahlı Qüvvələrin Baş Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşündə Vətən müharibəsində Azərbaycan dövlətinin niyyətini bildirdi: “Bizim davamız ədalətli davadır və əminəm ki, bu müharibədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək”. Bu kəlamlar ölkə başçısının qətiyyətlə dediyi “...biz hər halda bu torpaqları qaytaracağıq. Döyüş meydanında bugünkü vəziyyət də bunu göstərdi. Biz onları nəyin bahasına olsa,qaytaracağıq. Ya dinc yolla, ya da müharibə yolu ilə, lakin qaytaracağıq...” kəlamı ilə səsləşir. Biri digərinin məntiqi davamı olan bu kəlamlar döyüşənlərin döyüş əzmini, döyüşə sevgisini, qələbə ruhunu kükrətdi. Vətən müharibəsi hamını əsgərləşdirdi.. Döyüşlərin ilk günlərində minlərlə gənc döyüşlərə getmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdi. Hamının ürəyi döyüşənlərin yanındaydı. Bu, Vətən müharibəsi idi. Kifayət qədər yüksək döyüş hazırlığına malik olan Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini qələbələrlə davam etdirdi.

Döyüşlərdə ağır itkilərə məruz qalan Ermənistan yenə havadarlarına müraciət etdi, Azərbaycanın atəşi dayandırmasını xahiş etdi. Bu, məğlubiyyət ərəfəsi idi. Moskvada humanitar atəşkəs haqqında sənəd imzalandı. Sənəd imzalanan günün gecəsi Ermənistan Gəncəyə raket zərbəsi endirdi. Bu fakt Ermənistanın riyakarlığının, işğalçı dövlət olduğunun, işğal etdiyi torpaqlardan çıxmaq istəmədiyinin təsdiqi kimi anlaşıldı. Azərbaycan Ordusu düşmənin riyakarlığını döyüşlə, qətiyyətli azərbaycançılıq döyüşləriylə ödətdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın müxtəlif tele-kanallarına müsahibələrində münaqişənin mahiyyəti, sülh yolu ilə həlli istiqamətində səylər, işğalçı dövlətin danışıqlardan yayınması, dövlət sərhədlərini pozmaq cəhdləri və s. haqqında ətraflı məlumat verdi. Dünya ictimaiyyəti Azərbaycan Prezidentinin qətiyyətini gördü, dövlətə, dövlətçiliyə, azərbaycançılığa sədaqətini gördü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də xalqa müaciətində dedi: "İndi mənə olan zənglər və zənglər əsnasında gedən söhbətlər, əlbəttə ki, konfidensial xarakter daşıyır və bəzi hallarda indi soruşurlar bəs, sizin şərtiniz nədir? Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın.

Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil...". Bu şərt işğalı sonlandırma şərtidir. Bəşəri dövlətlər bu şərti tarixi ədalətin, haqqın şərti bildilər. Ancaq dövlət siyasətinin mahiyyəti işğalçılığa meyil, terrora meyil, özgə ərazilərinə meyil olan bir dövlətin belə bir şərtə əməl edəcəyinə inanmadılar. Çünki bu şərt onun illərlə yaşatdığı xülyanın sonu deməkdir. Azərbaycan isə Ali Baş Komandanın sərkərdəliyi ilə məhz bu son üçün Vətən müharibəsindədi.

Xudafərin körpüsü işğaldan azad edildikdən sonra gizir Raquf Əliyev "Hər birimizin istəyini, niyyətini hərbi xidmət ümumiləşdirir. Hamımız Ali Baş Komandanın əmriylə döyüşmək, torpaqlarımızı azad etmək niyyətiylə xidmət etmişik. Döyüşlər başladı. Əks-hücum əməliyyatı kimi davam edən döyüşlərin iştirakçısı olmaq mənim hərbçi taleyimin uğurudur.”

Vətən müharibəsi tarixi müharibədir. Vətən müharibəsi vətənpərvərliyin işğalçılıqla döyüşüdür. Azərbaycan əsgəri döyüş-döyüş irəliləyirdi, yaşayış məntəqələrimizi ermənisizləşdirərək irəliləyirdi, düşməni çığnayıb keçərək irəliləyirdi - Şuşaya yaxınlaşırdı.

İctimaiyyət bilirdi ki, Vətən müharibəsi Böyük Qələbə üçündür, Vətən müharibəsinin iştirakçılarına güvənirdi, inanırdı ki, Ali Baş Komandanın sərkərdəliyiylə bu döyüşlər Böyük Qələbəylə tamamlanacaq!..

Suqovuşanın, Cəbrayılın, Füzulinin, Xudafərinin sevinci Azərbaycan Ordusunun zəfər yürüşünün ilk qələbələri kimi yaşanıldı.

Xudafərinin işğaldan azad edilməsi də böyük, çox böyük coşqularla qarşılandı. Əsgər Adəm Məmmədov qələbədən sonra onu, onun döyüşçü yoldaşlarını təbrik edənlərə demişdi: "Xudafərinin üç orta tağı qalır, kənar tağları dağıdılıb. O tağları tariximizə azərbaycançılığa qəsd kimi 30-cu illərdə SSRİ hökuməti dağıdıb. Biz bunun bərpasının qələbəsini qazandıq”. Qələbədən sonra döyüşçülərə deyilmişdi ki, Xudafərin Bəkr ibn Abdullahın körpüsüdür, Allahın körpüsüdü, Allahını tanıyanların, Allah adamlarının, xeyirxahların, insanlığa, bəşəriliyə xidmət edənlərin körpüsü olub, Azərbaycan əsgərinin qalibiyyətinin, ruhunun nəticəsi olan bu tarixi gündən - 18 oktyabrdan sonra da bəşəriliyə belə xidmət edəcək". Və hamı ruhundan boy göstərən 18 oktyabr tarixini həm də Xudafərinin yeni doğum tarixi kimi qeyd edəcək.

“Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundaylq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik”, – xalq Ali Baş Komadanın bu kəlamlarını Vətən müharibəsinin qəti qələbə ilə başa çatacağına zəmanət bilirdi.

Azərbaycan əsgərinin qələbə ruhunun təntənəsi kimi işğaldan azad edilmiş torpaqlarımızda qalibiyyət bayrağı dalğalanır. Azərbaycan əsgəri göy üzünün könülxoşluğunu 28 ildən sonra özünə qaytardı. Hamı noyabrın 8-ni – Şuşanın işğaldan azad edildiyi günü də, noyabrın 10-nu – Vətən müharibəsinin başa çatdığı günü də Azərbaycan əsgərinin qüdrəti bildi. Bu qüdrət dünyəvi qüdrətdir.

Şuşa döyüşləri haqqında rus mediasında maraqlı bir məqalə dərc edilib. Müəllif Azərbaycan əsgərinin Vətən sevgisinə, döyüş qabiliyyətinə, qətiyyətinə heyrətini gizlədə bilmir: “Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar”. Bu kəlmələri Azərbaycanı sevənlər də, Azərbaycanı gözə götürməyənlər də Azərbaycan Ordusunun müzəffər yürüşünə düşən daha bir işıq kimi oxuyub...

Oktyabrın 3-də Suqovuşan, oktyabrın 4-də Cəbrayıl, oktyabrın 9-da Hadrut, oktyabrın 17-də Füzuli, oktyabrın 21-də Zəngilan, oktyabrın 25-də Qubadlı, noyabrın 9-da Şuşa azad edildi, . Azərbaycan əsgərinin qələbə ruhunun təntənəsi kimi Şuşada da qalibiyyət bayrağı dalğalandı.

Vətən müharibəsi müzəffər Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdı.

Polkovnik Babək Səmidlinin dedikləri diqqəti çəkir: Biz Qələbə qazandıq. Ordumuzun əsgərlərinin əksəriyyəti atalarının doğulduğu rayonu görməyib. Onlar müharibə illərinin uşaqlarıdır. Əsgərlərdən biri asudə vaxtlarda söhbət zamanı demişdi ki, Ali Baş Komandanın əmriylə başlayacaq döyüşlərdə həm də atalarımızın əvəzindən döyüşəcəyik. Bu kəlmələri Azərbaycan əsgərinin mənəvi kamilliyinin təsdiqi bildik. Döyüşçülərimiz belə döyüşdü. Vətən müharibəsi başa çatdı. Tarixi qələbə qazandıq, torpaqlarımızı işğaldan azad etdik. Əsgərlərimiz qalib əsgər kimi tərxis ediləcəklər.

Xalq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabr ayının 10-da müraciətini Vətən müharibəsinin başa çatması kimi dinlədi, həm də bir daha əmin oldu ki, bu müqəddəs döyüşlərin iştirakçıları heç zaman unudulmayacaq. Qazilər də, şəhidlər də: “...Biz bu qələbəyə görə onlara borcluyuq. Onlar torpaqlarımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu, bizim

hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır".

Rəşid Faxralı